# "Şəhid qardaşlar" kitabı

**Hədəflər yetmək, məqsədlər çatmaq üçündür. İstəyinə çatmayanda sən sən olmursan. Nə geriyə dönə, nə irəliyə baxa bilirsən... Özün-özündən qaçaq düşən kimisən. Elə anlar olur ki, özünü belə tanımırsan. Tamam başqa olursan. Özgələşirsən. Səsindən çox sükutun eşidilir. Yoxluq səni özünə doğru çəkir. Səni özünə çəkəndən uzaqlaşa bilmirsən.**



## 9-cu yazı

*(Əvvəli ötən saylarımızda)*

### Həsrətin ümid yolu

Səni gələcəyə aparan lazımdır. Çıxış yolun ancaq odur. Gərəkəni bulmaq qalır sənə. Yaşamağın ondadır. Sənə qol-qanad, stimul, ümid verən, həyatını dəyişən nəsə olmalıdır. Bu yeni işmi olacaq, insanmı - dostmu, doğmamı, yadmı, fərq etməz. Yaradanın səni yaşatmaq üçün göndərdiyini görmək lazımdı. O, yaxındamı olacaq, uzaqdanmı, bilinmir. Əsas o ölü nöqtədən tərpənməkdir.

Bu əksər insanlarda olur. Hansısa hadisədən, məqamdan doğan narahatlığın yaratdığı, əmələ gətirdiyi vəziyyət hərəyə bir cür təsir edir. Olanlarını, keçmişini birdənbirə itirənlər bunu daha ağır keçirirlər. Bu da anlaşılandır. Ən ağır itkidi yurd itkisi. Bu itkiylə bütün olanların itir. Qayıdıb geri baxa bilmirsən. Geridə qaranlıqdan başqa heç nə yoxdur. Qaranlıqda isə heç nə görünmür.

Yurdundan uzaq düşməklə, keçmişinlə birlikdə özün də yox olursan. Qalanlar xatirələrdi. Bir vaxtlar sevə-sevə baxdıqlarını daha görə bilmirsən. Hər şey bir anın işində tarix olur. Boşluğa düşmüş kimisən. Sınıq xatirələrin gözlərini ovur.

Uşaqlığın, gəncliyin itir. İlk addım atdığın, gəzdiyin yerlərin taleyindən xəbərsiz qalırsan. Təkcə arzuların deyil, yurdla bərabər izlər də itir. O izləri ya toz basır, ya üstünə iz qoyulur, ya da kol-kos örtür. İzimizə iz qoymasaq bizi iz də unudacaq, yurd da. Özgələr səninlə bağlı hər şeyi silir. Unutdurur.

Vətən, yurd itkisini necə ifadə etmək istəsən də, o hissləri olduğu kimi çatdıra bilmirsən. Mümkünsüzdür. Danışa bilmirsən. İtkilərin hissləri səni boğur.

O hisslərin yazısı vərəqi yandırır. Alovu üzünü qarsır. İçin-için yanırsan. Yanan vərəqin, sözün alovu sənə tonqalın alovundan güclü gəlir. Çünki için yanır. Bu daxili yanğıyla qovrulursan.

Həmişə o yerlərə uçan quşlara həsəd aparan sən, indi ora gedən yolçuya üz tutmalı olursan:

*Baxışımı göndərim*
*yoluna həmdəm kimi.*
*İçimdə qıvrılıram*
*ruhsuz bir sərsəm kimi.*

*Kol-kos basmış yollarda*
*quruyub iz yarpağım.*
*Yolçu, ordan quş göndər,*
*dimdiyində torpağım.*

*Yel üzümə tutulan*
*tor qapını açdımı?*
*Uşaqlığım durumu?*
*Baş götürüb qaçdımı?*

*Daşıdılar qalmadı*
*torpağımı, daşımı.*
*Qoymağa yer qalıbmı,*
*ayağımı, başımı?*

Faya xanım yurduyla bağlı olanları yadına salanda dərindən köks ötürüb gözünü uşaqlarının gözlərindən qaçırırdı. Uşaqlar həmin an ona toxunmurdular ki, bir az sakitləşsin. Sonra analarının boynunu qucaqlayıb, üzündən bərk-bərk öpərək təskinlik verirdilər.

Keçmişə gedib-qayıtmağın yolu uzun olur.

Faya xanımın ən böyük arzusu doğma yurduna - Şərqdə Zəngəzur silsiləsi, cənubda Ələyəz dağları, şimalda Basarkeçər yaylası, qərbdə isə Səlim aşırımı yerləşən hündür dağlarla əhatə olunan Dərələyəzə - Ələyəzə baxmaq, o yerləri bir də görməkdir.

Qərbi Azərbaycan dediyimiz diyarın Dərələyəz mahalının Ələyəz kəndində dünyaya göz açdığından, həsrətli baxışlarını uzaqlara söykəyib, uşaqlarına tez-tez o yerlərin gözəlliyindən danışırdı:

"Dünyanın enişli-yoxuşlu yollarından, dərddən-qəmdən uzaq, xoşbəxt bir uşaqlıq, gənclik həyatı yaşayırdım.

1988-ci ilin acı günləri başladı. Erməni dığaları kəndə hücum edirdilər. Kənd sakinləri onların cavabını verirdilər. Bir neçə gün sakitlik oldu, sonra ermənilərin başçıları gəlib kənd ağsaqqallarını yığıb dedilər ki, bizim pasportumuzu alın, sizinlə işimiz yoxdur. Bir ay vaxtınız var. Heç kim razı olmadı. Yavaş-yavaş qız-gəlinləri kənddən çıxartdılar. Bundan xəbər tutan kimi ermənilər yolları bağladılar.

Bizi nənəmiz evdən çıxartdı. Evimizdən xeyli aralanmışdıq, ürəyim evdə qaldığından qayıdıb evimizə baxdım. Sanki evimizi baxışlarıma yığırdım. Sonra bir ovuc torpaq götürdüm. Hamı kimi mən də elə bilirdim ki, evimizə qayıdacağam.

Gözəl təbiəti, sıx meşəsi, sıldırım qayaları, müalicəvi bulaqları olan Dərələyəz mahalının adamları çox saf, mehriban və qonaqpərvər idilər.

Təkcə Ələyəz kəndində 1988-ci ildə ermənilər tərəfindən deportasiya olunanların sayı 1073 nəfər olmaqla, 200 təsərrüfat idi. Erməni dostu olan azərbaycanlılar 1968-1987-ci illərə qədər ermənilərdən "sizi burdan qovacaqlar"ı çox eşitmişdilər. Ona görə də 1985-ci ildə 225 ailə Ələyəzi tərk etdi.

Kənddə albanlara aid bir neçə abidə vardı. Son dönəmdə ermənilər abidənin üzərinə xaç işarələri yerləşdirirdilər. Biz heç nə başa düşmürdük. Düşmən işə öz çirkin əməllərini həyata keçirirdi.

Novruz bayramlarında çərşənbə axşamları sınanmış ocaqlarımızı ziyarətə gedərdik, niyyət edib şam yandırardıq. Həmin ocağın üstünə də gecəykən xaç taxmışdılar və xəbərdarlıq etmişdilər ki, ona kim toxunsa, həbs olunacaq.

Bizim evdən baxanda Salsalın qalası görünürdü. Üstündən qərinələr ötən, yaşı bilinməyən Sal-sal qalası, Arpa çayı, avqustda qarlı Təkədonduran dağı, Nənəmehriban abidəsi və neçə-neçə yaylaqlarımıza indi həsrət qalmışıq. Ancaq o yerləri unutmadıq və unutmamalıyıq.

Mən vətənimi, torpağımı həmişə çox sevmişəm. Bu gün də sevirəm. İnşallah, zaman gələr biz də doğma torpaqlarımıza qayıdarıq. Orda qalmış narahat ruhlarımız Qarabağ torpağındakı kimi rahat uyuyarlar.

Mənim istək və arzularımı hamıdan çox başa düşdüklərindən Cavidimlə Çingizim hərbi sahəni seçdilər.

Çingiz Murov dağında tez-tez təlimlərdə olurdu. Hər dəfə evə gələndə deyirdi ki, ana, səni bir gün Murov dağına, Kəlbəcərə aparacam, ordan Dərələyəz görünür. Deyirdim: "Çingiz, yaramın qaysağını qopartma". O, "Ürəyini sıxma. Yaxşı olar", - deyirdi. Bilirdim ki, Çingiz məni mütləq Kəlbəcərə aparacaq, ordan da doğma yurduma - Dərələyəzə baxacam...

İnşallah, Kəlbəcərə gedib həm Çingizin döyüş və şəhid olduğu yeri görəcəm, həm də Kəlbəcərdən o yerlərə baxacam.

Mənim övladlarımla bağlı bir arzum, bir niyyətim vardı: "Öldürmədən ölməyin! Qələbə qazanmadan geri dönməyin". Elə də oldu. Məni övladsız, oğulsuz qaldım, ancaq Vətənsiz qalmadım".

Ananın bu niyyəti, istəyi Cavidlə Çingiz üçün həyat yolu oldu. Bu vətənsevər ananın ürəyi vətən eşqi ilə döyünən, hər zaman işğal olunmuş torpaqların azad olunmasına can atan ovladları mütləq belə məğrur, igid olmalıydı.

Onlar hər dəfə Qərbi Azərbaycandan qaçqın, Qarabağdan köçkün düşənlərin üzlərindəki həsrəti görəndə anaları yadlarına düşürdü və ermənilərə nifrətləri min qat artırdı. Elə ona görə də bu iki igid oğul analarının arzularını yerinə yetirmək, həsrətlilərin həsrətinə son qoymaq üçün döyüşə can atırdılar. Yurd itkisinin nə qədər ağır olduğunu analarının gözlərindən oxuyurdular. Vətən deyəndə ananın ahı onların sinələrini yarıb, ürəklərini parçalayırdı.

Bilirdilər ki, Qərbi Ermənistan məsələsi Qarabağdan keçir. Cavid də, Çingiz də hərbiçi olaraq həm vətən qarşısındakı vətəndaşlıq, həm də anaları qarşısında övladlıq borcunu yerinə yetirmək üçün hərbi biliyə daha çox yiyələnməyə, döyüş texnikalarının sirlərini daha mükəmməl öyrənməyə hamıdan çox səy göstərərək, hərbi bilik və bacarıqlarını təkmilləşdirməyə çalışırdılar. Və buna da nail olurdular. Hamıdan fərqlənirdilər.

Daim ön cəbhədə, düşmənlə üzbəüz olmaq, kimin nəyə qadir olduğunu döyüşdə göstərmək iddiasında idilər. Əsgərləri, komandirləri də bunun fərqindəydilər. Komandirləri onlara güvənərək, ən ağır döyüş mövqelərinə məhz onları göndərirdilər. Bilirdilər ki, nəyin bahasına olursa-olsun, mütləq döyüş tapşırıqlarını yerinə yetirəcəklər. Elə də olurdu... Canlarını qurban verməkdən belə çəkinmədən.

***

İnsan bəzən itkini, ağrını, həsrəti yaşamasa da, doğmalarının nələr keçirdiklərini duyaraq onu yaşayır. O acı onların köksündə qubar bağlayır.

Ananı sevindirmək qədər övladı xoşbəxt edən heç nə yoxdur. Bu, müqayisəolunmazdı. Təkcə ana sevincində övladlıq borcunun misqalını qaytarmış kimi olursan.

Bütün sevinclərin ən gözəli ana gözlərindədir. Onu görməkdən böyük səadət yoxdur.

Çingiz anasından eşitdiyi Dərələyəzin təbiətinə oxşatdığından Kəlbəcərin təbiətinə oxşatdığından Kəlbəcərin daha tez alınmasını istəyirdi. Murov dağının hər sıldırımlı qayalarına qalxdıqca, "arzuma çatmağıma az qaldı", - deyirdi. O hər döyüşdə işğalda qalan torpaqları azad etdikcə, həm də anasının vətənə gedən yolunu düşməndən təmizləyirdi. Addım-addım, qaya-qaya...

Azərbaycanın İsveçrəsi adlandırılan Kəlbəcərin gözəlliyini gördükcə, nələr itirdiklərimizin fərqində olurdu. Bu yerlər ermənilər tərəfindən dağıdılıb tarimar olsa da, gözəlliyi yenə göz oxşayır. Baxdıqca baxmaq istədiyin sıldırımlı, sanki mişarla kəsilmiş qayalar, qayalardan süzülən sular, bumbuz bulaqlar, rəssam fırçası ilə işlənmiş kimi görünən, dünyanın nadir ağac növləri ilə zəngin meşələr, müalicəvi İstisu, istisuyla bulaq suyunun uzun müddət yanaşı axıb sonda birləşib axdığı Tərtər çayı...

Füsunkarlığı ilə göz oxşayan Kəlbəcərdə nələr yoxdu... Yaşamaq üçün hər şeylə bərabər,

ermənilərin vəhşicəsinə istismar etdikləri Zod qızıl yataqları və başqa neçə-neçə material ehtiyatları...

Və ən əsası, Kəlbəcər Vətən torpağıdı!

*(ardı var)*

***Rəfail TAĞIZADƏ***